Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



# "Azərbaycan, mənim taxtım – tacım, oy!"

**Almas İldırımın anadan olmasının 110 illiyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2017**

**Tərtibçi:** **Zahirə Dadaşova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar Mədəniyyət işçisi

“Azərbaycan, mənim taxtım – tacım, oy!” metodik vəsait / tərt.ed.Z.Dadaşova; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 23s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Ön söz

Almas İldırımın yaradıcılığı Azərbaycan mühacirət poeziyasının bənzərsiz səhifələrindən birini təşkil edir. Şairin milli azadlıq və müstəqillik uğrunda mübarizəyə həsr olunmuş əsərlərində xalqımızın ağrılı tarixi taleyi, vətən məhəbbəti və qəriblik mövzusu dolğun bədii əksini tapmışdır.

Kitabxanaçılara təqdim etdiyimiz metodik vəsaitdə əsas məqsədimiz Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus xidmətləri olan Almas İldırımın yaradıcılığı ilə onları daha da dərindən tanış etməkdir. 2017-ci ildə Almas İldırımın 110 illik yubileyidir. Bu münasibətlə il ərzində bütün mədəniyyət ocaqlarında silsilə tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur.

Yaxşı olar ki, hər bir kitabxanaçı vəsaitdə verilmiş müxtəlif tədbir formalarından istifadə etməklə ömrünün sonuna qədər vətən həsrətli ilə yaşayan nakam şairimiz Almas İldırımı öz oxucularına tanıtsın.

Metodik vəsait iki bölmədən ibarətdir:

I Böımə: "Qara taleyin dastanı"(A.İldırımın həyat və yaradıcılığı haqqında məlumat)

II Bölmə: "A.İldırım- 110" kitabxanada keçiriləcək yubiley tədbirləri

II bölmədə verilmiş tədbir formaları yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Metodik vəsaitdən uşaq, məktəb, gimnaziya, lisey, kollec, kütləvi və s. kitabxanaların kitabxanaçıları istifadə edə bilər.

## I Böımə: “Qara taleyin dastanı”

Könlümə tək kəbə yapdım səni bən,
Sənsiz nedəm qürbət eldə günü bən.
Sənsiz nedəm Allahı mən, dini bən,
Azərbaycan, bənim tacım, taxtım oy!
Oyanmazmı kor olası baxtım oy!

Ötən yüzilliyin otuzuncu illərində yazılmışdı bu şeir. 1920-ci ildə Rusiyanın Azərbaycanı qanlı caynağına alıb yenidən işğal etdiyi, milli dövlətimizi yıxıb köləlik boyunduruğunu yenidən boynumuza taxdığı bir vaxtda. Onda bu boyunduruğu boyunbağı kimi görüb sığallayanlar da varıydı, köləlik zənciri olduğunu duyub qırmağa, onu boynundan çıxarmağa can atanlar da. Birinciləri öpüb göz üstünə qoyurdular, ikinciləri gözümçıxdıya salırdılar. Yuxarıdakı sətirləri yazan Almas İldırımın adı ikincilərin sırasındaydı, sözsüz ki, onu öpüb göz üstünə qoymazdılar, qoymadılar da!

1988-ci ilə qədər onun adını Azərbaycanda çox az adam eşitmiş, şeirlərini çox az adam oxumuşdu, çünki sovet ideoloqları milli düşüncəyə, milli şüura qənim kəsilmişdilər. Kölə psixologiyasını xalqın iliyinə, qanına hopdurmaq üçün milli nə vardısa, hamısının ölümünə fərman verilmişdi. Milli oyanışın, özünüdərkin qarşısını almaq üçün hər şeyə əl atırdılar. Bu işdə pantürkçü damğası imperiya ideoloqlarının ən güclü silahıydı. "Mən türkəm" deyənin dilini kəsir, səsini batırırdılar.

"Azərbaycanı könlümə tək kəbə yapıb", "Azərbaycan, mənim tacım, taxtım oy! Oyanmazmı kor olası baxtım oy!" deyən Almas İldırım təpədən dırnağa azadlıq eşqilə yoğrulmuşdu. Köləliklə barışa bilmirdi. O, bir bulud kimi dolmuşdu, ildırım kimi çaxmalıydı. İldırımı ram eləmək olmur. Almas İldırımı da ram eləyə bilmədilər. Əqidəsindən dönmədi,

yolundan sapmadı, fikrindən daşınmadı, sözünü dəyişmədi, Azərbaycanın boynuna taxılmış köləlik zəncirilə barışmadığını gizlətmədi. İçi od püskürdü, qələmi alov saçdı.

1930-cu ildə "Dağlar səslənirkən" adlı şeirlər kitabı işıq üzü gördü. Heç onun sevincini yaşamağa da qoymadılar. 2 mart 1931-ci il tarixli "Kommunist" qəzetində B.Zəngili təxəllüslü (Hüseyn Bünyadov) birisi qılıncını çəkib düşdü kitabın üstünə. Bu həmin Zəngiliydi ki, ömrü boyu cəmi 5-6 yazı yazmışdı. Əslində onları yazı yox, 37-ci il repressiyalarına hazırlıq mərhələsində məhkəməyəqədərki ittiham adlandırmaq daha doğru olar. Biri Səməd Vurğuna, biri Mikayıl Müşfiqə, biridə Almas İldırıma oxunmuşdu bu ittihamnamələrin. Hamısının da altında "B.Zəngili" imzası. Bu Zəngilinin məqalələrini ona görə ittihamnamələr adlandırırıq ki, onlar 37-ci il repressiyasının qurbanları haqqındakı ittihamnamələrlə eyni üslubda, kəskinlikdəvə ovqatda yazılmışdı.

M.Müşfiqin ittihamnaməsindən götürülmüş aşağıdakı cümləyə fikir verək: "İstintaq müəyyənləşdirdi ki, 1926-cı ildən 1930-cu ilə qədər Almas İldırımzadə və Nəsir Quluzadə tərəfindən İsmayılzadə Mikayıl Müşfiq Qədir oğlu əksinqilabi müsavatçı ruhunda hazırlanmışdır".

Görəsən, Almas İldırımla Mikayıl Müşfiqin bir-birinə bağlanması təsadüf idimi, yoxsa B.Zəngilinin hər iki şair haqqındakı məqalələri onları bir-birinə bağlamağa əsas vermişdir. Axı həmin "İnqilab və mədəniyyət" (indiki "Azərbaycan") dərgisinin 1931-ci il 3-4-cü sayında çap etdirdiyi "Şairin andı" məqaləsində Səməd Vurğunu bəy nəslindən olmaqda günahlandırır, "Hücum" dərgisinin 1931-ci il 7-8-ci sayında çap etdirdiyi "Küləklər" məqaləsində M.Müşfiqi "öz vaxtının sürətindən geri qalmış" adlandırır, "Kommunist" qəzetinin 1931-ci il 2 mart tarixli sayında çap etdirdiyi "Dağlar səslənirkən" məqaləsində Almas İldırımın əsərlərində

"meşşanlıq izi" axtarırdı. Bəlkə də ittiham üçün başqa tutarlı əsas tapmadığından bu cür böhtana əl atmışdır. Əslində Almas İldırım gözəllərin simasında da vətəni görür, sevgi şeirlərində də Vətəni önə çəkir, onun taleyini yazırdı. Onun dərdi, qəmi qadınlar, qızlar yox, vətəndir, xalqdır. Təzəcə qol-qanadı sındırılıb qəfəsə salınmış vətən! Təzəcə boynuna boyunduruq taxılmış xalq! "O gözələ" adlı şeiri oxuyanda biz bunu aydın görürük. Şeir "O gözələ" adlansa da, burada sevginin, məhəbbətin ünvanı qız yox, vətəndir. Şair "O gözələ" üz tutub yenə yurdunun, vətəninin dərdindən, qəmindən danışır, azadlığını, dövlətçiliyini itirdiyindən ürək ağrısıyla söhbət açır:

Kəbəm oldun, mehrabına diz qoydum,
Xızrım oldun, dərgahına göz qoydum.
Qərib düşdüm, torpağına üz qoydum,
Bir sormadın, nədir dərdim, gözəlim?
Hara getsəm arxamda bir ahım var,
Yazıb baş qoymağa bir dərgahım var.
Əlbət ki, mənim də bir Allahım var,
Gün gəlir, hürr olur yurdum, gözəlim.

Sonuncu misradan şairin o gözələ niyə üz tutduğu, nə demək istədiyi bəlli olur. Bəlli olur ki, şair çox uzaqgörənliklə üz tutduğu gözələ yurdunun bir gün öz azadlığına qovuşacağını, kölәlik zəncirini qırıb atacağını deyir. Şair həmin günü görməsə də, biz gördük. Bu, onun uzaqgörənliyiydi ki, bəhrəsi bizim qismətimizə düşdü. Almas İldırım yaxşı bilirdi ki, bu cür işgəncələrlə, sürgünlərlə onu sındırmağa, əyməyə çalışırlar. Ancaq o nə sınır, nə əyilir, nə də əqidəsindən, məsləkindən dönürdü. Dağıstanda sürgündə olduğu vaxtda da qələmi ehtiyat bilmədən yazıb-yaradırdı. Şairi Dağıstanda da sakit buraxmır, izləyir, nə yazdığına, necə yazdığına göz qoyurdular. 1931-ci

ildə 24 yaşında Dağıstandan Türküstana sürgün edilərkən "Əlvida, Bakı" adlı şeirində vətənə "can" dediyinə görə vətəndən qovulduğunu, ancaq vətənin "bu qurbana" acımadığını yana-yana, ürək ağrısıyla belə ifadə etmişdir:

Günahım "can" dedim, sana, qovuldum,
Acımadın bu qurbana, əlvida.

Təkcə bu iki misranın üstündə nə qədər düşünmək, nə qədər söz demək olar. Almas İldırım bu şeirdə vətəndən niyə qovulduğunu açıb göstərir. Biz onun "öz günahını" yaxşı anladığını bütün şeirlərində hiss edirik. "A dağlar" şeiri də başdan-ayağa şairin "günahları"yla yoğrulmuşdur:

Of Bakı... bu ayrılıq mənə ölümdən ağır,
Aləmə bahar gəldi, sənə yağmur, qar yağır.
Gündüzlərin dumanlı, gecələr dilsiz, sağır,
Bu boğulan səsimi varmı duyan, a dağlar?

Bu şeirdəki dağlar vətəniydi. Şair "dağlar" deyəndə vətəni nəzərdə tuturdu. "Aləmə bahar gəldi, sənə yağmur, qar yağır" misrasında açıq-aydın Azərbaycanın işğalına işarə vururdu.

B.Zəngilinin məqalələrindən sonra Mikayıl Müşfiq 37-ci il repressiyalarını gözlədi, Səməd Vurğun təsadüf nəticəsində ölümün gözündən yayındı, Almas İldırım isə heç o günü gözləmədi. Türküstandan xəlvətcə İrana, oradan da son ümid yeri olan Türkiyəyə qaçdı. Həmin vaxt onun vətən həsrətinin ağrı-acılarını ancaq Türkiyə ovuda bilərdi. Ancaq orada az da olsa təskinlik tapa bilərdi. Belə də oldu. Türkiyə onu doğma balası kimi qucağına aldı, boyunu oxşadı, qayğısını çəkdi.

Almas İldırım Azərbaycanı o qədər ürəkdən sevirdi ki, buradan ayrılarkən iki yolu varıydı: ya ürəyini Azərbaycanda

qoyub getməliydi, ya da Azərbaycanı ürəyində aparmalıydı. Birinci halda həm ürəksiz, həm Azərbaycansız yaşamaq olmazdı. Ona görə də ikinci yolu seçdi. Azərbaycanı ürəyində apardı.

Almas İldırım haqqında ilk kitab yazan ədəbiyyatşünas alim, akademik Bəkir Nəbiyev apardığı araşdırmalar nəticəsində öyrənib ki, həqiqətən Almas İldırımın həyatı çox ağır və məşəqqətli keçib. Dağıstandan sonra onu Türkmənistana sürgün ediblər. Ömrü-günü qəriblikdə keçib. Müxtəlif ölkələri dolaşıb. Amma öz doğma yurduna dönə bilməyib. Dəhşətlisi odur ki, şairi heç harda rahat buraxmırdılar. O dövrün mətbuatında Almas İldırımın ünvanına nələr yazmırdılar. Onu gah "sinfi düşmən şairi", gah da "burjua tör-töküntüsü" adlandırırdılar. Bütövlükdə onun bütün fəaliyyəti nəzarətə alınmışdı. Doğrudur, Almas İldırım ona qarşı olan hücumlara mətbuatda cavab verirdi. Amma onun harayı eşidilmirdi. Uzun müddətdən sonra şairin son pənah yeri Türkiyə oldu. Şair bu seçimində yanılmamışdı. Burada onun həyat tərzi tədricən sahmana düşdü. Almas İldırımın çətin günlərinin dayağı ömür-gün dostu Zivər xanım olub. O qürbət ellərdə üzləşdikləri çətinlikləri birlikdə dəf etməyə çalışıblar. Cəmi 45 il ömür sürmüş Almas İldırım ömrünün 17 ilini Şərqi Anadolunun əyalət şəhərlərində yaşadı. Müxtəlif idarələrdə kargüzarlıqla məşğul oldu. Hətta bir müddət müəllimlik də etdi. Ömrü boyu "Azərbaycan, mənim baxtsiz anam oy!" deyərək həsrətlə vətəni harayladı. 1952-ci ildə vəfat edən Almas İldırımdan üç övlad yadigar qalmışdır.

**II Bölmə: " A.İldırım- 110" kitabxanada keçiriləcək yubiley tədbirləri**

Bütün kitabxanalarda ilk növbədə "Nakam taleli şair", "Vətənpərvər ürəyin işığında", "Vətən nisgilli şair", "Almas İldırım - 110", "Mən sənə yad deyil, doğma oğuldum..." və s. kimi başlıqlı kitab sərgiləri tərtib olunmalıdır. Haqqında kitablar çox az olduğundan sərgidə dövri mətbuatda dərc olunmuş qəzet və jurnal məqalələrinin foto-surətindən istifadə etmək olar. Həmçinin sərginin daha dolğun görünməsi və bədii tərtibat cəhətdən diqqəti cəlb etməsi məqsədilə onun şeirlərindən parçaları sitat vermək olar. Məsələn:

"Mən anlamaq istəməm nə məzhəb, nə yol, nə din,
Mənim yalnız ümidim Türk qəlbi, iradəsi,
Mənim yalnız tutduğum millətimin haqq səsi."

"Gizli yol kəsmədim, qaçaq olmadım,
Sakit bir həyatı pozmadım mən ki!..
Heç kimə qanlı bir bıçaq olmadım,
Heç bir qətlə fərman yazmadım mən ki!.."

"Mənim imanım bir, eşqim, özüm bir,
Bir çeşmədən axdım, qaynar gözüm bir,
Türk oğlu türkəm mən, mərdəm, sözüm bir,
Yol ver, yol ver öz yurduma gedəm mən."

"Buraxın, parçalansın zülmün haqsız yapısı,
Silinsin yer üzündən kommunizmin kabusu,
Millətlərə açılsın öz yurdunun qapısı,
İnsanlara hürriyyət! Bu dilək, şan mənimdir!!!"

Kitabxanalarda orta yaş qrup oxucularla Maarif Teymurun tərtibatı, Yusif Günaydının redaktorluğu ilə çap olunmuş “Qara dastan” kitabının icmalını, şerləri və poemalarından parçalarla şer müsabiqəsi keçirmək olar.

Böyük yaş qrup oxucularla inşa müsabiqəsi də keçirilə bilər. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqədə iştirak edən oxucular bir daha repressiya qurbanı olmuş söz-sənət ustalarının yaradıcılığını dərindən öyrənməklə öz inşa yazıları ilə nakam soydaşımıza öz fikirlərini bildirmiş olurlar.

Müsabiqədə fərqlənənlər mükafatlandırılmaqla yanaşı tədbirlə bağlı məlumatlar uşaq qəzetlərində, radio verilişlərində verilsə daha yaxşı olar.
Böyük yaşlı oxucularla “İgidlərə səsləniş”, “Qara dastan” kitabları üzrə icmal keçirmək olar. İcmalı belə başlamaq olar:

“Mədəniyyətin, incəsənətin təəssübünü çəkmək xalqın şərəfini qorumaqdır. Dünya sənəti böhrana düşəndə antik dövrə qayıdır, ondan ilhamlanır. O dövrdə isə sənətkarlar – dramaturqlar, aktyorlar, yazıçılar, şairlər cəmiyyətin ən yüksək təbəqəsi sayılır, onların yaradıcılığı üçün hər bir şərait yaradılır. Sənətkarları günəş, işıq, müdriklik allahı Appolon himayə edir. Görəsən, bizim dövrdə necə? Mədəniyyətinə, incəsənətinə qayğı göstərməyən istər ölkə olsun, istərsə də şəxs nə qədər varlı olsa da, mənəviyyatca yoxsul deyilmi? Onların tikdikləri, yığdıqları qum üstündəki evə bənzər. Nə yaxşı ki, bizdə sənətə, sənətkara qiymət verən layiqli ölkə başçıları olub. 1997-ci ildə ulu öndərimiz H.Əliyev öz çıxışlarında pepressiya qurbanı olmuş söz, sənət, elm adamlarını öyrənib tədqiq etməyi, yubileylərini keçirməyi tövsiyə etdi. Həmin vaxt xeyli işlər görüldü, oxucularımız bu nakam soydaşımızın zəngin mənəvi

irsi ilə tanış olmaq imkanı əldə etdilər. "Qara dastan " kitabı çapdan buraxıldı...
Almas İıldırım 1933-cü ildə Türkiyədə-Elazıqda məskunlaşır. Çox səfalı təbiəti olan Elazığda kiçik bir göl də varmış-Gölcük adında. Ona bir şeir də həsr edir. 1935-ci ildə Atatürkə məktub yazır ki, bəs mən Azərbaycandan gələn bir qaçqınam. Mümkünsə vətənimin Xəzər dənizinə oxşayan Gölcük məhz Xəzər adlandırılsın. Şairin bu xahişi yerinə yetirilir. Beləcə, Bakının Xəzəri Elazığın Xəzəriylə adaş olur. Türkiyədə onun "Ninnilər" və "Bayatılar" kitabları çapdan çıxır. O kitablardakı şeirləri sonralar "Qara dastan"da dərc olunur.

Vətənsevər şair, türklüyə körpü salan mühacir şair kimi qalacaq. Ruhlar ölmür. Onun ruhu hər an yurdunu qarış-qarış gəzir. "

Bədii gecələrin uşaq kitabxanalarında təşkili daha maraqla oxucular tərəfindən qarşılanır. Bu məqsədlə də "Qaranlıqda işıqlar" adlı ədəbi-bədii gecənin ssenarisini veririk:

## "Qaranlıqda işıqlar"
(*bədii kompozisiya*)

I aparıcı:

Hər bir sənətkar üçün xalqın faciələrlə dolu keçmişinin tarixini yaratmaq mənəvi borcudur. Bu tarixi yaradan üçün ən böyük məktəb xalqın həyatı və taleyi, ən ümdə məqsəd isə unudulmuşları qaytarmaq, bərpa etməkdir.

II aparıcı:

Azərbaycan mədəniyyət tarixinin elə səhifələri var ki, az qala 70 ilə yaxın bir müddətdə xalqdan gizlədilmiş, onun inkişafında böyük rol oynamış şəxsiyyətlərin həyat və yaradıcılıq taleyi çox az adama məlum olub. Ötən əsrin

90-cı illərinə qədər mədəniyyət tariximizin belə ağ səhifələrindən biri də Azərbaycan mühacirət poeziyasının görkəmli nümayəndələrindən olan Almas İldırımın adı ilə bağlı idi. Onun ömür yolunu və zəngin poetik irsini həyat və yaradıcılığı ilə bağlı sənədlərin və xatirələrin dili ilə demək bizim mənəvi borcumuzdur.

I aparıcı:

Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Almas İldırım taleyin amansız gərdişinə tuş olmuş ağır və əzablı həyat sürmüş bir vətən aşiqi, azadlıq carçısı idi. Ədəbiyyatımızın şah damarlarından sayılan bu nakam taleli söz sahibinin yazıb yaratdıqlarından uzun müddət xəbərimiz olmayıb. Yaşıdları - onunla birlikdə ədəbiyyata gəlmiş həmkarları və bəzi tədqiqatçılar istisna olmaqla, sovet hakimiyyəti illərində şeir, sənət həvəskarları, oxucular Almas İldırım adlı bir şairi tanımayıblar. Halbuki Süleyman Rüstəm, Məmməd Rahim, Osman Sarıvəlli, Səməd Vurğun... kimi şairlərlə eyni dövrün şəriki olan Almas İldırım poeziyamızın inkişafında özünəməxsus rol oynayıb.

II aparıcı:

Onlara ya "xalq düşməni", ya da "millətçi" damğası vuraraq gedər-gəlməzə göndərirdilər. Bir faktı xatırladaq ki, Almas İldırım Mikayıl Müşfiq, Rəsul Rza, Hüseyn Cavid, Seyid Hüseyn, Cəfər Cabbarlı, Abdulla Şaiq, Tağı Şahbazi, Hacıkərim Sanılı kimi qələm sahibləri ilə birlikdə ədəbi fəaliyyətlə məşğul olurdu. Almas İldırım yurduna bağlı, vətənini, millətini çox sevən istedadlı qələm sahibi idi. Lakin o dövr cəmiyyətdə gedən münaqişələr onun da taleyinə çox əzablı məqamlar bəxş etdi. Ona əvvəlcə, "millətçi" damğası vuraraq Dağıstana sürgün etdilər. Bununla

yanaşı Almas İldırımı "xırda burjua" yazıçısı adlandıraraq Azərbaycan Proletar Yazıçılar Cəmiyyətindən xaric etdilər. O dövrdə millətinə qənim kəsilənlər kimlərinsə xoşuna gəlmək üçün söyləyirdilər. "Almas kimilərinin başları sovet çəkici ilə əzilməlidir". Bu cür mənəvi terror sonralar qəfildən Cəfər Cabbarlının ürəyini susdurdu, Mikayıl Müşfiqi, Hüseyn Cavidi... zindanlara saldırdı.

I aparıcı:

Almas İldırım ömrü acı taleli, təqiblərlə dolu, sürgünlərdə və qürbətdə keçən məşəqqətli bir yol idi. Azərbaycan televiziyasının hazırladığı "Almas İldırım" adlı sənədli filmini şairin taleyi və poeziyası haqqında kədərli bir hekayət adlandırmaq olar. Filmin elmi məsləhətçisi Maarif Teymurun araşdırmaları əsasında bədii söz və onun müəllifi A.İldırımın ekran həyatı daha maraqlı təsir bağışlayır. Şairin yaşayıb-yaratdığı dövr, ötən əsrin 20-ci illərinin hadisələri ekranda ustalıqla canlandırılır, poeziyasında açıq duyulan vətən həsrəti tamaşaçıya onun yaradıcılığı vasitəsi ilə parlaq şəkildə təqdim olunur.

*( Ekranda proyektor vasitəsilə "Almas İldırım" adlı sənədli filmdən bir parça nümayiş etdirilir.)*

II aparıcı:

A.İldırım yaradıcılığının və həyatının ekran dili ilə yeni, həm də zənnimizcə, çox uğurlu ifadəsi olan bu sənədli film şairə yeni baxışın üzə çıxmasıdır. Filmin ssenari müəllifi Əhməd Oğuz, rejissoru Şahəddin Eyvazovdur. Rejissor şairin ekran

taleyinin maraqlı və təsirli çıxması üçün qocaman operator, yüzlərlə sənədli filmin müəllifi Nəriman Şıxəliyevlə birlikdə kino texnikasının vasitələrindən bacarıqla istifadə edib, onlar A.İldırımın insan və şəxsiyyət kimi bitkin obrazını yaratmağa nail olublar. Alim və naşirlərimiz tərəfindən şairin həyat və yaradıcılığının araşdırılıb tədqiq edilməsi, ekran ustalarımız tərəfindən şairin ekrana gətirilməsi mühacir şair Almas İldırımı xalqımıza qaytarır, onun mənəvi ömrünü uzadır.

I aparıcı:

Cəmi 45 il ömür sürən Almas İldırımın xoşbəxtliyi və səadəti çox az çəkib. Əhməd Cavad, Hüseyn Cavid və Cəfər Cabbarlının əsərlərindən ilhamlanan Almas İldırım gənc yaşlarından şer yazmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və süqut etdiyi vaxt şair yeniyetmə olsa da, o, bu yeniliyi duya bilir və onun süqutunun acısını bütün ömrü boyu dərindən yaşayır. Proletar yazıçılar cəmiyyətində ona qarşı kəskin çıxışlar səslənir: " Yazarlar arasında müsavatçılara aşiq və Türkiyə çavuşlarının həqiqi şagirdi bulunan Almas İldırımlar yer almış olduğu meydana çıxmaqdadır. Bunlar Əhməd Cavad və Hüseyn Cavidlərin yolçusudurlar". Bundan sonra A.İldırım Yazıçılar Cəmiyyətindən xaric edilir. Dövlət Siyasi İdarəsi tərəfindən daima təqib olunan şair doğma Azərbaycandan ayrı yaşamaq məcburiyyətində qalır. "İçində bir sızı, gözündə nəm" olan şair vətəni, eli, obanı tərk

etdikdən sonra da onun mübarizəsi Vətən uğrunda, istiqlal uğrunda olur.

II aparıcı:

Harada olursa - olsun - Azərbaycanda, Dağıstanda, Türkmənistanda, İranda, Türkiyədə - təqiblər, məhrumiyyətlər onun yaradıcılıq əzmini zəiflədə bilmədi. Uşaqlığı Xəzər sahilində keçdiyi üçün Xəzər coşğunluğu, sonralar isə ömrünün yarısından çoxunu sürgündə, qürbətdə yaşadığı üçün Xəzər həsrəti, Xəzər nisgili hiss olunurdu şerlərində.

*(Səhnəyə oxucular gəlir. Musiqi sədaları altında şeirlər səslənir)*

I oxucu:

Harda məni gül qoynunda doğuran,
Xamırımı göz yaşıyla yoğuran,
Beşiyimdə "layla balam!" çağıran
Azərbaycan, mənim baxtsız anam oy!...
Neçə ildir həsrətində yannam oy!..
Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa oy!..
Hökm etsə, bu sərsəm gediş dursa oy!..

II oxucu:

Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adı dilimdən?!
Azərbaycan, mənim eşsiz yurdum oy!...
Ölməz eşqim, içimdəki dərdim oy!..
Könlümə tək Kəbə yapdım səni mən,

Sənsiz neylim qürbət eldə günü mən,
Sənsiz neylim Allahı mən, dini mən,
Azərbaycan, mənim tacım, taxtım oy!...
Oyanmazmı kor olası baxtım oy?!

I aparıcı:

Dəhşətli dərd-bəla çəkdiyi zaman, hər yerdən əli üzüləndə dağa pənah apardı, üzünü dağa tutub dərdini söylədi.

III oxucu:

Əzəldən can deyərək bu sevdalı ölkəyə,
Hər qadasın aldığım sənə əyan, a dağlar.
Oxşarkən hər dərdini söz verdim ölüm deyə,
Onunçün bu çəkdiyim dərd bipayan, a dağlar...
Doğma yurdu tərk edib atıldım diyar-diyar,
Görmədim şikəstə qəlb oxşayacaq bir bahar.
Döndü hər düşmən oldu dost denilən hər nə var,
Sən gəl öz dostluğunda möhkəm dayan, a dağlar.

IV oxucu:

Of Bakı... bu ayrılıq mənə ölümdən ağır,
Aləmə bahar gəldi, sənə yağmur, qar yağır.
Gündüzlərin dumanlı, gecələr dilsiz, sağır;
Bu boğulan səsimi varmı duyan, a dağlar?
Hicrinə tab edərsəm, dağları dələcəyəm,
Bir qanlı Sezar kimi mən yenə gələcəyəm,
Bir gün İldəgiz kimi hayqıra biləcəyəm,
Artıq oyan, a dağlar, artıq oyan, a dağlar!..

Bir gün gələr qoşaraq yurdumun harayına,
Mən atəş açacağam düşmənin sarayına;
Nə düşər yurdu batmış bir igidin payına?
Ya şərəfli istiqlal, ya qızıl qan, a dağlar!..

II aparıcı:

Almas İldırımın bütün yaradıcılığını bir qara taleyin dastanı adlandırmaq olar. Bu dastanın qəhrəmanı da paralanmış, yaralanmış, bölünmüş, işğal olunmuş, xoşbəxtliyi əlindən alınıb qəfəsə salınmış Azərbaycandı. "Özü dərd içində boğulmuş, sevənləri diyar-diyar qovulmuş" Azərbaycan! "Qopuzu susdurulmuş", "Kamanı sındırılmış", "Tarını, sazını proletarın sevmədiyi"Azərbaycan:

Dörd bir yana dağılmış türk soyları,
Sönmüş ocaq, köçmüş, getmiş boyları.
Dərdli-dərdli axar bozkır çayları,
Saxlar içdən gizli ümid, güman hey,
Qoca türkün düşdüyü gün yaman hey...
Azərbaycan dərd içində boğulmuş,
Sevənləri diyar-diyar qovulmuş.
Ağla, şair, ağla yurdun dağılmış,
Nerdə qopuz, nerdə qırıq kaman hey?
Nerdə böyük vətən, nerdə Turan hey?

II aparıcı:

25 yaşında Azərbaycana "əlvida" deyən şair bu həsrətlə cəmi 20 il yaşaya bildi. 20 il onun ürəyindəki yara için-için göynədi, korun-korun sızıldadı. Bu yaranı Almas İldırım Azərbaycandan aparmışdı. Buradan

apardıqlarının üstünə də orada bir həsrət göynərtisi gəlib onun ağrı-acısını birə beş qat artırdı. "Nərdə böyük vətən, nərdə Turan hey?" deyə-deyə hayqıran Almas İldırımın ürəyi içini didən dərdə, qəmə 20 il tab gətirə bildi. Almas İldırım az yaşadı, kişi kimi yaşadı. Özünü tox tutdu, qəddini şax tutdu, sözünü də uca! Əqidəsini bir qarın çörəyə, ucuz şöhrətə, gərəksiz orden-medallara, yalançı təriflərə qurban vermədi. Ona görə də indi adıyla, əməlləriylə ürəklərdə yuva salıb yaşayır. Dünən adları dillərdən düşməyənlərin çoxları indi unudulub, dünən adını da bilmədiyimiz Almas İldırımın adı isə bu gün neçə-neçə dillərin əzbəridir. Nə qədər ki, Azərbaycan var, onun misraları da yaşayacaq.

III oxucu:

Başımızdan fırtınalar gəlib keçdi, ölmədik,
Torpağımız qan udaraq daşlarımız qızardı,
Sultanlara yol vermədik, şahlara yar olmadıq,
Sinəmizdən keçən yolçu dumanlardan azardı...

II aparıcı:

A.İldırım Vətən, Ana, İstiqlal sözlərini daima uca tutdu, doğma Azərbaycanın müstəqilliyini həyatından vacib hesab etdi.

V oxucu:

Verin mənə yurdumu olsun cənnət bucağı,
Bir dövlət qurayım ki, sülhün doğma ocağı,
Başında dalğalansa üç boyalı bayrağı,
O zaman zənn edərəm bütün cahan mənimdir.

I aparıcı:

Çox təəssüf ki, şair müqəddəs arzularının zəmanəmizdə həqiqətə çevrilməkdə olduğunu görə bilmədi. O, Azərbaycan xalqının öz müstəqil dövlətini qurmaqda

olduğunu və başının üzərində onun arzuladığı kimi "üç rəngli bayrağın" dalğalandığını görmədən bu dünyadan getdi.

VI oxucu:

Ağlama, ağlama, ey gözləri bulutlu yar,
Barı uzaqdan olsa qadanı ala bilsəm...
Bir tərlan kimi qonsam o qar yallı dağlara,
Bir ovçu vursa, düşsəm, sinəndə qala bilsəm,
Qurbanın ola bilsəm...

Yenə yaşlar göründü o dalğın gözlərində,
Bir qurbanmı gedən var o buz dənizlərində?
Yıllar boyu bir bahar görməyən düzlərində,
Gül kimi açılsam da, gül kimi sola bilsəm,
Mən sənin ola bilsəm...

II aparıcı:

M.Teymur kitabın girişində yazır: "Şairi əbədiyyətə qovuşduran onun sözləridir. Lakin bu ürək yanğısı ilə yazılmış sözlər müəyyən səbəblər üzündən oxuculara çatmırsa, şair də yaşamır, oxucu ömrü də solğun, mənasız olur. Şairin sözlərini bu ağır iqtisadi günlərdə oxuculara çatdırmağı öz üzərinə götürən "Aydın" İstehsalat-Kommersiya Mərkəzinə bir daha dərin minnətdarlığımızı bildiririk... "Qara dastan"ı vərəqlə oxucu, oxu, düşün və uzun illər boyu min bir ideoloji diversiya vasitəsi ilə adı, irsi səndən səylə gizlədilən, üç boyalı müqəddəs bayrağın ana yurdun üfüqlərində bir daha dalğalanacağına ən ağır anlarda belə inamını itirməyən ölməz həmvətənini önündə gör!".

İnam, etiqad ilə yaşanan ömür şərəfli ömürdür. Təmiz əqidəlilər, təmiz məsləklilər təqib oluna bilərlər, lakin onları ləkələmək qeyri-mümkündür. A.İldırımı təqib

edənlər öz əməlləri ilə özlərini tarixin qara səhifələrinə yazdılar. Və bir zamanlar yurd həsrətilə coşaraq:

Mənim imanım bir, eşqim, özüm bir,
Bir çeşmədən axdım, qaynar gözüm bir,
Türk oğlu türkəm mən, mərdəm, sözüm bir,
Yol ver, yol ver, öz yurduma gedəm mən! –
*deyən Almas İldırım isə artıq bu gün öz doğma yurdunda, Vətənindədir!*

**Ədəbiyyat siyahısı:**


**İnternetdə:**
www.google.az
www.edebiyyatqazeti.com
www.azadliq.org

**Kitablar:**

İldırım A. (1907-1952). Seçilmiş əsərləri – B.: Öndər, 2004. – 160 s.

Almas İldırımın seçilmiş əsərlərindən ibarət olan bu kitabına müəllifin milli istiqlal, azadlıq, müstəqillik uğrunda mübarizəyə həsr olunmuş şeirləri toplanmışdır. Şeirlərdə Vətən həsrəti, tarixi keçmişimizlə bağlı poetik düşüncələr öz parlaq əksini tapmışdır.

Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şerlərilə: Tərtib və ön söz H.Hacıyevindir– B.: Azərnəşr, 1990. – 31 s.

**Dövri mətbuat:**

Abbasov İ. “...Öz yurduma gedəm mən”:Vətən nisgilli şair heykəl olub Vətənə döndü // Xalq qəzeti. - 2000. – 9 iyun.

Ağbabalı T.O. “Mən sənə yad deyil, doğma oğuldum...”(Almas İldırım -90) // Xalr qəzeti. - 1997. – 12 oktyabr.

Almas İldırım: "Mən uzaq bir Göy Gölün yolunda böylə soldum" : Almas İldırımın kitabı Türkiyədə nəşr olunacaq // Ədəbiyyat qəzeti. - 2006. - 27 yanvar. - S.3.

Almas İldırımın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı (Bakı şəhəri,16 aprel,2007) // Xalq qəzeti. - 2007. - 17 aprel. - S.2. ; Azərbaycan. - 2007. - 17 aprel. - S.1.

Bəşirova S. “Azərbaycan, mənim taxtım – tacım, oy!” (Repressiya qurbanı olmuş nakam şairimiz Almas İldırım haqqında) //Səhər. – 1992. – 8 dekabr.

Cəfərova , Xatirə. Vətən yanğılı şair : Almas İldırım - 100 // Ədəbiyyat qəzeti. - 2007. - 25 may. - S.1-3

İsmayıloğlu A. Sənət təəssübü //Ədəbiyyat qəzeti. - 1995. – 14 aprel. - S.8

Qəribli İ. "Didərgin şair" // Ədəbiyyat qəzeti. - 2005. - 30 dekabr. - S.7. - Nəbiyev B. Didərgin şair. - B.: "XXI - Yeni nəşrlər evi", 2005. kb-na res-ya.

Nəbiyev B. Nakam həyatın salnaməsi // Bakı. – 1993. – 23 sentyabr.

Onu ancaq Azərbaycan dərdi öldürə bilərdi : Türkiyədə Elzağ vilayətində mühacir şair Almas İldırımın yubileyi keçirilmişdir // Yaddaş. - 2007. - 19 aprel. - S.8.

Teymur M. Almas İldırımın yaradıcılığından yadigarlar...// Bakı, 1993, 4 may.

Teymur M. Azəri-türk uluslararası ünlü şairimiz : Almas İldırım - 100 // Ədəbiyyat qəzeti. - 2007. - 6 aprel. - S.6.

Türkiyədə Almas İldırımın yubileyi keçirilir : yubiley tədbirlərinə Azərbaycan nümayəndə heyəti də qatılıb // Yeni Azərbaycan. - 2007. - 13 aprel. - S.8.

Zeynallı Z. "Gözlər yaşlı, boynu bükük, vətənsizmı öləcəyəm?" : Almas Yıldırım-100 // Ulduz. - 2007. - № 3. - S.82-83.

## “Azərbaycan, mənim taxtım – tacım, oy!”
## (metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** ***Zahirə Dadaşova***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:18.02.2017
Tirajı:100
Pulsuz